# HACIYEV FİKRƏT ƏLİ OĞLU



Fikrət Hacıyev 19 may 1964-cü ildə Goranboy rayonunun Qızılhacılı kəndində doğulmuşdur. 1978-ci ildə doğma kəndlərində səkkizinci sinfi bitirdikdən sonra Gəncə texniki-peşə məktəbində elektrik ixtisasına yiyələnmişdir. 1982-ci ildə Goranboy rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Ufa şəhərində başa vuduqdan sonra Bakı Kooperativ Texnikumunda təhsilini başa vurub doğma kəndə qayıdır və öz ixtisası üzrə əmək fəaliyyətinə başlayır. 1991-ci ilin sonu o, könüllü olaraq cəbhəyə gedir. Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər məntəqələrin erməni quldurlarından müdafiəsində fəal iştirak edir və az müddət ərzində döyüş yoldaşlarının böyük hörmətini qazanır. 4 may 1992-ci ildə Talış kəndində yerləşən erməni mövqelərini susdurmaq üçün “Yaltaxıl” adlanan ərazi üzrə əməliyyat planı hazırlanmışdı. Bu erməni silahlı birləşmələri üçün gözlənilməz olmuş, öz mövqelərini tərk etməyə məcbur olmuşlar. Mayın 5-də ermənilər qəfil hücuma keçərək ərazini güclü atəşə tutdular. Fikrət Hacıyev bu döyüşdə qəhrəmancasına Şəhid oldu. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Hacıyev Fikrət Əli oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Qızılhacılı kənd qəbristanlığında dəfn edilmişdir. Ballıqaya kənd ümumi orta məktəbi 1993-cü ildən etibarən Milli Qəhrəmanın adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.